# Azərbaycan və ABŞ arasında yeni strateji mərhələnin başlanğıcı

Son dövrlərdə Azərbaycan və Amerika Birləşmiş Ştatları arasındakı yüksəksəviyyəli təmasların artması ikitərəfli münasibətlərdə yeni mərhələnin başlanması kimi xarakterizə edilir. Bu mərhələ siyasi münasibətlərin möhkəmləndirilməsi ilə yanaşı, iqtisadi əməkdaşlığın da ön plana çıxması baxımından əhəmiyyətlidir.



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İqtisadi təhlil şöbəsinin baş məsləhətçisi İlkin Qasımov açıqlamasında bildirib ki, ABŞ vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana rəsmi səfərindən öncə ABŞ Ticarət Palatasının nümayəndə heyətinin Bakıya gəlməsi və Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi də çox əhəmiyyətlidir: "Prezident İlham Əliyevin görüş zamanı səsləndirdiyi əsas fikirlər Azərbaycan-ABŞ iqtisadi münasibətlərinin növbəti mərhələsinin konseptual çərçivəsini aydın şəkildə izah edir. Dövlətimizin başçısının ölkədəki siyasi sabitliyi, həmçinin ardıcıl şəkildə həyata keçirilən islahatları, o cümlədən hüquqi bazanın təkmilləşdirilməsi sahəsində görülən işləri xüsusi vurğulaması ABŞ biznes dairələri ilə uzunmüddətli əməkdaşlıq üçün lazım olan etibarlı mühitin mövcudluğunun ən yüksək səviyyədə bəyanıdır. Bu, xüsusilə qlobal qeyri-müəyyənliklərin artdığı bir dövrdə strateji əhəmiyyət daşıyır".

İ.Qasımov qeyd edib ki, ABŞ Ticarət Palatasının nümayəndə heyəti ilə görüşün əsas diqqətçəkən məqamlarından biri də ikitərəfli iqtisadi əlaqələrin şaxələndirilməsi ilə bağlı fikirlərin səsləndirilməsidir. Bu vaxta qədər ABŞ şirkətləri əsasən Azərbaycanın neft-qaz sektorunda daha güclü mövqelərə sahib idilərsə, növbəti mərhələdə yeni əməkdaşlıq istiqaməti olaraq qeyri-neft sektoru, o cümlədən texnologiya, bərpaolunan enerji, rəqəmsal transformasiya və süni intellekt kimi sahələr əsas istiqamətlər olaraq təqdim edilir. Bu potensial əməkdaşlıq imkanlarını artırmaqla yanaşı, Azərbaycanın müasir iqtisadi modelinin bilik və texnologiyaya transformasiya yolunda sürətlə irəliləməsini göstərir. Prezident İlham Əliyevin ölkənin əlverişli coğrafi mövqeyini və beynəlxalq nəqliyyat dəhlizlərində artan rolunu qeyd etməsi ABŞ şirkətlərinin Azərbaycanı yalnız lokal bazar olaraq deyil, eyni zamanda daha geniş regionlara çıxış qapısı olaraq görməsinə şərait yaradacaq.

Baş məsləhətçi vurğulayıb ki, Ceyms Devid Vensin Azərbaycana səfəri, həmçinin amerikalı iş adamları ilə görüş iki ölkə arasında siyasi münasibətlərin daha da dərinləşməsi ilə yanaşı, iqtisadi əlaqələrin inkişafı baxımından yeni strateji mərhələnin başlanğıcı olaraq dəyərləndirilə bilər: "İstər qarşılıqlı bəyanatlar, istərsə də görüş zamanı səsləndirilən fikirlər rəsmi Bakının ABŞ-ni yalnız investisiya mənbəyi olaraq deyil, eyni zamanda iqtisadi modernləşmə prosesində tərəfdaş olaraq gördüyünü bir daha sübut edir. Mövcud dinamika yeni mərhələdə Azərbaycan-ABŞ iqtisadi əlaqələrinin əsas istiqamətləri kimi investisiyaların şaxələndirilməsi, qeyri-neft sektorunda birgə fəaliyyət və texnologiya əsaslı əməkdaşlığın ön plana çıxacağını göstərir".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 11 fevral (№26).- S.7.